# OSMANLI MİNİATÜR RƏNGKARLIĞININ İNKİŞAF TARİXİ

Aysel İsrafilova
E-mail: *israfilova95@gmail.com*

İslamdan öncə və sonrakı dövrdə bir çox Şərq xalqlarının mədəni həyatında mövcud olmuş miniatür türk xalqlarının da həyatında əhəmiyyətli mövqe tutmuşdur.

Böyük Səlcuq imperatorluğunun dağılmasından sonra meydana gələn Bəyliklər dövründə miniatür rəngkarlığında bir durğunluq yaranır. Bu bəyliklərdən biri olaraq yaranan və zamanın axarında siyasi və iqtisadi gücünü artıraraq Anadolunun da hakiminə çevrilən Osmanlı dövründə incəsənətin digər sahələri kimi, miniatür də duyulası inkişaf yoluna qədəm qoymuşdur (2, s.7-8).

Osmanlı miniatür rəngkarlığının günümüzə çatan ən erkən nümunələri XV əsrin sonlarında paytaxtın Bursadan Ədirnəyə köçürülməsindən sonrakı dövrə aiddir. Həmin dövrdə Ədirnədə nəqqaşxananın fəaliyyət göstərməsi bəzi mənbələrdə qeyd edilir. Osmanlı miniatür rəngkarlığının ilk nümunələri əsas mənbəni Səlcuq rəsm üslubundan almaqla birlikdə, həmdövrü olan Teymuri və Türkmən rəsm üslublarından da təsirlənmişdir (1, s.39).

Osmanlı tarixi qaynaqlarında miniatürə "naxış", onun yaradıcısına isə "nəqqaş" deyilir. Sarayda, eyni zamanda, məktəb funksiyasını yerinə yetirən "nəqqaşxana" adlı emalatxanalar da fəaliyyət göstərir və bu emalatxanalarda "sərnəqqaş" və ya "nəqqaşbaşı" adlanan ustanın yanında bir çox sənətkarlar işləyirdi. Nəqqaşların Osmanlı miniatür rəngkarlığında işlədikləri mövzular çox zəngindir. Şənliklər və cıdır, elçi qəbulları, şahın ordu dəstələri, döyüş və ov səhnələri, şəhər mənzərələri, dəfnetmə təsvirləri kimi başlıqlar altında qruplaşdırıla bilər. İslam Peyğəmbəri Hz. Məhəmmədin, qızlarının və xanımlarının üzlərindən başqa hər şey təsvir edilirdi. Təbiət motivləri, insan fiqurları, müxtəlif bitki və heyvan təsvirləri, səmadan alınan motivlər, cadugər, div, köçərilər, şəhər planları, savaş səhnələri, müxtəlif elmlərlə bağlı açıqlayıcı təsvirlər və digər bir çox başqa mövzulu miniatürlərə də rast gəlinir (2, s.9-10).

Erkən Osmanlı əlyazmalarına misal kimi XV əsrdə Ədirnə saray nəqqaşxanasında hazırlandığı güman edilən Şəmsəddin Məhəmməd Abdullah Nişapurinin qəsidələrindən ibarət "Külliyati-Katib", Bədrəddin ət-Taciri ət-Təbrizinin "Dilsiznamə", Əhmədinin "İsgəndərnamə" və Amasiyada hazırlanan "Cərrahiyətül-Xaniyə" adlı əsərləri göstərmək olar (2, s.8).

Tədqiqatçılar Osmanlı miniatür rəngkarlığının inkişaf dövrünü altı mərhələyə bölür və belə adlandırırlar: 1) yaranma dövrü – II Mehmet və I Səlimin dövrü (1451-1520); 2) keçid dövrü – I Süleyman və II Səlimin dövrü (1520-1574); 3) klassik dövr – III Murad və III Mehmet dövrü (1574-1603); 4) son klassik və durğunluq dövrü – XVII əsr; 5) ikinci klassik dövr – III Əhmədin dövrü və XVIII əsrin ikinci yarısı; 6) son dövr – XIX əsrin sonuna qədər.

İstanbulun fəthindən sonra Fateh Sultan Mehmetin Qərbdən olan sənətkarları saraya dəvət etməsi ilə Osmanlı miniatür rəngkarlığının inkişafında yeni dəyişikliklər özünü göstərir. Bu yenilənmənin təməlində Fatehin Qərb hökmdarları kimi öz portretini çəkdirmək arzusu durur və bu arzu zamanın axarında Osmanlı miniatüründə padşah portretçiliyi kimi yeni bir ənənənin təməlini qoyur. 1461-ci ildə Fateh avropalı, xüsusən də italiyalı bir çox sənətkarı öz sarayına dəvət etmişdir (1, s.46). Saraya gələn sənətkarlar arasında Venesiyalı Maestro Paolo və Veronalı Matteo di Pasti, 1478-1481-ci illərdə İstanbulda qalan və Fatehə çoxlu sayda medalyon hazırlayan Constanza da Ferrara ilə Fatehin portretini çəkən Gentile Bellini olmuşdur. Dövrün ən məşhur sənətkarlarından olan nəqqaş Sinan Bəy Venesiyada rəssam Maestro Paolodan dərs almış, İstanbula qayıtdıqdan sonra isə Fatehin portretini işləmişdir (2, s.10).

Fahet Sultan Mehmet dövründə işlənmiş bir çox miniatürlü əsərlərdə türkmən miniatürlərinin təsiri görünür. Bu miniatürlər dövrün geyim, musiqi alətləri, əyləncə məclisləri, saray həyatından xəbər verir (3). II Mehmetin dövlət siyasətinin bir parçası olaraq incəsənətə böyük önəm vermiş olması səbəbi ilə imperatorluğun bütün bölgələrindən və kənardan sənətkarlar İstanbula gətirilmişdir. Xaricdən gələn sənətkarların təsiri ilə portret sahəsinə yaranan maraq və miniatürün qarşılıqlı əlaqəsindən Osmanlı miniatür rəngkarlığı yaranmışdır. Bununla da nəqqaş Sinan bəy və tələbəsi Əhməd Şiblizadə miniatürün bir qolu kimi portret sahəsində püxtələşmişlər. Yeni üslub özündə həm Qərbin işıq-kölgə və prespektiva tətbiqini, həm də ənənəvi Təbriz miniatürünün xüsusiyyətlərini daşımışdır (4).

II Bəyazidin taxta çıxdığı dövrdə miniatür bu dövrün digər İslam hökmdarları olan Heratda Teymuri Sultan Hüseyn Bayqaranın, Şiraz və Təbrizdə Ağqoyunlu sultanı Yaqub və Qahirədə Məmlük Sultanın himayəsində yaradılan üslubun xüsusiyyətlərinə uyğun inkişaf etdi. Bu dövrdə İstanbul nəqqaşxanasında "Kəlilə və Dimnə", "Xosrov və Şirin", "Yusif və Züleyxa" kimi ədəbiyyat mövzulu nümunələrin əlyazmalarının rəsmli nüsxələri hazırlanmışdır. 1498-ci ildə Heratda hazırlanan, ancaq tamamlanmadan Osmanlı sarayına gətirilərək bir "Xəmse-i Xosrov Dəhləvi" nüsxəsinə əlavə olunan 8 miniatür də bu dövrə aiddir (1, s.48). Həmin vaxtdan etibarən tarixin yazılmasının böyük əhəmiyyət qazanması ilə Osmanlı miniatürlərinin də əhəmiyyəti artmışdır. Saray emalatxanasından çıxmış və dövrümüzə çatan əlyazmaların əksəriyyəti II Bəyazid dövrünə aiddir. Əsərlərdə artıq Qərb təsiri azalmış, portretçilik yerini əlyazmaların səhifələrini bəzəyən miniatürlərə vermişdir. Həmin dövrün ən məşhur nəqqaşlarından biri Firdovsi Rumidir (2, s.11).

I Sultan Səlim zamanı Osmanlı saray nəqqaşxanasında böyük dəyişikliklərə yol açaraq İrandan sənətkarların köçünü həyata keçirmişdir. 1514-cü ildə Çaldıran müharibəsində I Səlim Səfəvi dövlətini məğlub edərək Qərbi İranda yerləşən Səfəvilərin paytaxtı Təbrizi ələ keçirdi. Təbrizi qısa müddətə tərk etməsinə baxmayaraq, Təbrizdən əhəmiyyətli sənətkar və rəssamı İstanbula gətirdi (4).


Babi Hümayun, Şahənşahnamə, Nəqqaş Osman, XVI əsr

Sultan Süleyman Qanuni dövründə Osmanlı miniatürünün tamamilə özünəxas üslubu formalaşmışdır. Dövlətin sərhədlərinin genişlənməsi ilə mədəni təsirlərin artması miniatür rəngkarlığından da yan keçmədi, həm üslubda, həm də kompozisiyalarda çeşidlilik meydana gəldi. Fəth edən ölkələrin sənətkarlarının yerli ustalar üzərindəki təsirləri ilə bir çox əsərlər meydana gəldi. Dövrün ən əhəmiyyətli əsərləri tarixi mövzuda çəkilənlərdir. Tarix zamanla Osmanlı miniatürlərinin əsas mövzusu olmuş və daha realist səpgili əsərlər yaradılmışdır. Məsələn, 1534-cü ildə nəqqaş Matrakçı Nasuhun yaratdığı "Bəyan-i Mənazil-i Səfər-i İraqeyn" Qanuninin İraq səfərindən bəhs edir. Sultanın yolu üstündəki şəhərlərin quş baxışı görüntülərini realistik formada işləyən nəqqaş detallaşdırmaya varmadan əsas nöqtələri qeyd etmişdir. Beləcə, topoqrafik rəsmin ilk xüsusiyyətlərini vermişdir. Dövrün digər əsəri "Süleymaniyə" adlanır və şahnamə tərzində yazılmaqla türk kitab rəsminin əhəmiyyətli dönüş nöqtəsidir (2, s.11).

II Səlim və xüsusilə də III Murad dövrü Osmanlı miniatürü inkişafının ən yüksək dövrü hesab olunur və "klassik dövr" adlanır. Muradi təxəllüsü ilə şeirlər yazmaqla yanaşı, III Murad həm də xəttatlıqla məşğul olmuş, rəsmli əsərlər yaradan sənətkarlar üçün hər bir şərait yaratmışdır. Osmanlı miniatürü bu dövrdə digər islam miniatürlərinin qəlib və bəzəmə funksiyalarından çıxaraq ayrılıqda

bir ifadə vasitəsinə çevrilmişdir. Bu üslubun yaranmasında təsiri olan sənətkar nəqqaş Osman olmuşdur. Nəqqaş Osmanın klassik Osmanlı miniatüründə işlədiyi ilk əsər Əhməd Firidun Paşa tərəfindən yazılan "Nüzhət-ül əxbar dər-səfər-i Sigətvar"dır. Şahnaməçi kimi fəaliyyət göstərən Seyid Loğmanın yazdığı və nəqqaş Osmanın illüstürə etdiyi şahnamə tipli əsərlərdən biri "Şahnamə-i Səlim Xan"dır. Digər bu tipli əsər isə "Şahənşahnamə" və yaxud da "Şahnamə-i Sultan Murad"dır (1, s.58-60).

Dövrün portretçisi isə Nigari təxəllüsü ilə tanınan Heydər Rəisdir. Osmanlı portretlərinin ən əhəmiyyətli nümunələri III Murad dövründə çəkilmiş nəqqaş Osmanın "Qiyafət-əl İnsaniyə fi Şəmail əl-Osmaniyə" adlı əsərində müxtəlif Osmanlı sultanlarına aid 20 portretdir. Həmin portretlər vasitəsilə Osmanlı sultanlarının xüsusiyyətləri aydınlaşdırılmışdır. III Muradın oğlu III Mehmetin sünnət mərasimini təsvir edən "Sürnamə" miniatürlü əlyazması sayəsində XVI əsr cəmiyyətinin sosial və iqtisadi vəziyyəti ilə bağlı məlumat almaq olar. III Muradın əmri ilə başlanılan, ancaq III Mehmetin dövründə tamamlanan Hz. Məhəmmədin (s.ə.s.) həyatından bəhs edən 814 miniatürlük "Siyər-i Nəbi" adlı 6 cildlik əsər XVI əsrin sonuna aid ən əhəmiyyətli əsərdir (2, s.12).

XVII-XVIII əsrlərdə Osmanlı imperiyasının iqtisadi və siyasi gücünün zəifləməsi incəsənətə, o cümlədən miniatür və kitab sənətinə də öz mənfi təsirini göstərdi. I Əhmədin dövründə mürəkkə hazırlama ənənəsi ilə yanaşı, təkyarpaq miniatür və rəsm təsvirlərinin də artdığı nəzərə çarpır. Xüsusilə də I Əhməd üçün vəssalə ustası Qələndər Paşanın hazırladığı mürəkkələr dəyərli miniatürlərdən ibarətdir. Bu mürəkkələr arasında ən tanınmışı əvvəlində müqəddiməsi olan "I Əhməd Albomu" adlanır. Bu albom günlük həyat təsvirlərilə xalqdan və saraydan insanları tək-tək və ya qrup halında göstərməsi ilə və yaxud əvvəlki dövrlərin əsərlərindən əxz olunan bəzi hökmdar portretlərini də özündə birləşdirməsilə böyük əhəmiyyət kəsb edir. Sənətkarın hazırladığı digər bir əsər isə "Falnamə"dir.

XVII əsr Osmanlı miniatürünün qismən verimli dövrü II Osmanın hakimiyyəti zamanına təsadüf edir. Bu dövrün sənətkarları arasında şahnamə ustası Nadiri və rəssam Nəqşinin adları xüsusi qeyd olunur. "Şahnamə-i Nadiri" və "Tərcümeyi Şakaik-i Nümaniyə" Nəqşinin illüstrə etdiyi kitablardır (5, s.54-56). XVII əsrin II yarısında Osmanlı sultanları Ədirnə sarayında yaşamağa başlayırlar. Beləliklə, şəxsi üslubu ilə özündən sonrakı Levninin yaradıcılığına təsir etmiş Müsəvvir Hüseynin imzasına, Osmanlı sultanlarının şəcərəsini peyğəmbərlərə bağlayaraq Adəmə qədər aparan medalyonlu silsilənamələrə rast gəlinir (1, s.82).

XVIII əsrin I yarısında III Əhməd və Sədrəzəm Damad İbrahim Paşanın təsiri ilə miniatür bir yenilənmə dövrünə qədəm qoyur. Dövrün siyasi vəziyyətində dövlət ilk dəfə Qərbə açılır və Avropa ölkələri ilə qurulan əlaqələrlə mədəni sahələrdə də dəyişikliklər yaranır. Dövrün ən tanınmış miniatür ustası Levni idi. Levninin işləri arasında III Əhməd üçün hazırladığı "Surnamə" və Osmanlı sultanlarının portretlərindən ibarət "Silsilənamə" xüsusilə dəyərlidir. Levnidən sonra isə təkçiçək və fiqur işlərilə məşhur olan miniatür ustası Abdullah Buxaridir (2, s.13). Levni tərəfindən hazırlanan "Surnamə-i Vəhbi"nin Osmanlı sarayı tərəfindən hazırlanan son miniatürlü əlyazma olduğu iddia edilir. XVIII əsrin ortalarından etibarən Qərb rəngkarlıq üsullarının daha çox əhəmiyyət qazanması ilə Osmanlının zəfər və fəthlərindən bəhs edən miniatür rəngkarlığı əvvəlki əhəmiyyətini itirərək tədricən yox olmuşdur (4).

Beləliklə də, miniatür rəngkarlığının dövlətin himayəsində inkişafla özünəməxsus Osmanlı miniatürü halına gəlməsi Sultan II Mehmetdən Sultan I Süleymana qədər olan bir dövrdə həyata keçib. XVIII əsrə qədər isə miniatür rəngkarlığı əhəmiyyətli sənətkarları və əlyazma kitabları ilə Osmanlı sarayında ali bir mövqe tutmuşdur.

**Ədəbiyyat:**

1. Banu Mahir. "Osmanlı minyatür sanatı". Kabalcı yayıncılık, 2005.
2. Fatih Şimşek. "Türk minyatür sanatı". academu.edu
3. www.osmanlisanati.com/p10.html#
4. https://tr/wikipedia.org/wiki/Osmanli_minyatürü
5. Zerren Tanıdı. "Türk minyatür sanatı". Türkiye iş bankası kültür yayınları, 1996.

**Резюме**

Статья рассказывает о миниатюрной живописи, разработанной под патронажем Османской империи и получившей своего рода оттоманскую миниатюру, которая была реализована от Султана II Мехмета Султану I Сулейману.

**Ключевые слова:** Оттоманские миниатюры, миниатюрная живопись, дворцовац живописъ, рукописи.

**Summary**

The article tells about miniature painting, developed under the patronage of the Ottoman Empire and received a kind of Ottoman miniature, which was implemented from Sultan II Mehmet Sultan I Suleiman.

**Key words:** Ottoman miniatures, miniature painting, palace painting, manuscript.